# Azərbaycanın haqq işinə beynəlxalq mənəvi-siyasi dəstək

***Azərbaycan, təxminən 30 illik mübarizədən sonra–keçən ilin noyabrında özünün ərazi bütövlüyünü bərpa etdi. Bu, böyük siyasi təcrübə və diplomatik məharətə malik Prezident İlham Əliyevin və müzəffər Azərbaycan Ordusunun sayəsində mümkün oldu. Dövlət başçısı problemin siyasi yollarla nizamlanmasını, Azərbaycan Ordusu isə hərbi məsələləri uğurla, böyük peşəkarlıqla həll etdi. Nəticə, təbii ki, sevindirici oldu, işğal altındakı ərazilərimiz bir-birinin ardınca düşmən tapdağından azad edildi. Prezident isə, demək olar ki, hər gün bu və ya digər rayonun azad olunması müjdəsini efir vasitəsilə xalqa çatdırdı.***

***(ardı 5-ci səhifədə)***

# Azərbaycanın haqq işinə beynəlxalq mənəvi-siyasi dəstək

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan işğalçı və terrorçu Ermənistana həm döyüş meydanında, həm də informasiya məkanında qalib gəldi. Nəticədə ilk mərhələdə Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Murov dağı, Suqovuşan, Hadrut, Xocavənd rayonunun böyük bir hissəsi və Şuşa şəhəri hərbi yollarla azad edildi. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü və kapitulyasiya aktına imza atdı. Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, eləcə də Ermənistanın baş naziri arasında Üçtərəfli Bəyanat imzalandıqdan sonra Ağdam, Kəlbəcər və Laçın rayonları da bir güllə belə atılmadan Azərbaycana qaytarıldı. Prezident İlham Əliyev bunlarla bağlı da xalqa müraciət edərək bildirdi ki, hər üç rayon Azərbaycanın döyüş meydanında qazandığı tarixi qələbələr nəticəsində azad edilib.

Vətən müharibəsində tarixi qələbəmiz münasibətilə dekabrın 10-da Bakıdakı Azadlıq meydanında hərbi parad keçirildi. Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər iştirak edirdi. Bunlardan əlavə, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın edərək ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Paradda Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, qardaş Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın da iştirak etməsi mühüm əhəmiyyət kəsb edirdi. Həmin günlərdə bir daha əmin olduq ki, Azərbaycan tək deyil, qardaş Türkiyə, onun lideri Ərdoğan özünün mənəvi və siyasi dəstəyi ilə həmişə yanımızdadır.

Paradda çıxış edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bildirdi ki, Azərbaycan 44 günlük əks-hücum əməliyyatları ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub edib, işğala son qoyub: "Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

Zəfər paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da çıxış edərək, böyük qələbə münasibətilə Azərbaycan xalqını, Qarabağı otuz illik həsrətdən sonra Ana Vətənlə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətini təbrik etdi. Bildirdi ki, həm hərbi, həm də diplomatiya sahəsində əldə edilmiş bu uğurda ən böyük paylardan biri Prezident İlham Əliyevə aiddir: "Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir".




Biz bu tarixi paradda həm də Azərbaycan–Türkiyə birliyi və qardaşlığının əsl nümunəsini gördük. Bu qələbənin hər iki xalqı sevincə qərq etdiyini müşahidə etdik. Buna görə də əminik ki, iki qardaş xalq əl-ələ verərək gələcəkdə daha böyük uğurlara imza ata biləcək. Prezident İlham Əliyev paraddakı çıxışında qeyd etdi: "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk".

Təbii ki, Vətən müharibəsi günlərində Azərbaycana ciddi mənəvi-siyasi dəstək göstərmiş ölkə təkcə Türkiyə deyildi. Bu sıradakı digər ölkələri də unutmaq olmaz. Prezident İlham Əliyev çıxışlarında ölkəmizə mənəvi-siyasi dəstək vermiş Pakistanın adını da həmişə qürurla çəkib. Bundan əlavə, Azərbaycan lideri müharibənin davam etdiyi günlərdə Qoşulmama Hərəkatına üzv olan ölkələrdən ciddi mənəvi dəstək aldığımızı qeyd edib. Hərəkata üzv ölkələrin nümayəndələri müharibə ilə Azərbaycana irad bildirmək istəyən bəzi dövlətlərin məsələni BMT-də qaldırılmasının qarşısını almışdılar. Dövlətimizin başçısı çıxışlarında buna görə həmin ölkələrə dəfələrlə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə toplantılarından birindəki çıxışında bu barədə bildirib: "Ötən il sentyabrın 27-də və 28-də – müharibənin birinci və ikinci günü qardaş Pakistan və Əfqanıstan Ermənistanı işğala son qoymağa, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini icra etməyə çağırmış və Azərbaycanın ərazi bütövlüyünə öz dəstəklərini ifadə etmişlər. Mən bizi dəstəklədiklərinə görə onlara dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, müharibə dövründə bizi dəstəkləyən ölkələrin dövlət və hökumət başçılarına da təşəkkür edirəm".

Prezident İlham Əliyev noyabrın 30-da Pakistan İslam Respublikasının müdafiə istehsalatı naziri, Azərbaycan–Pakistan Birgə Komissiyasının həmsədri xanım Zobaida Cəlalı qəbul edərkən də Vətən müharibəsi dövründə Pakistanın Azərbaycanın ədalətli mövqeyinə, haqq işinə verdiyi davamlı siyasi-mənəvi dəstəyi və göstərdiyi qardaş mövqeyini xüsusilə qeyd etdi, buna görə pakistanlı qardaşlara bir daha minnətdarlığını bildirdi və Azərbaycan xalqının bunu yüksək qiymətləndirdiyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, Azərbaycan tərəfi işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində iştirak edən xarici şirkətlər sırasında Pakistan şirkətlərini də görməkdən məmnun olardı.

Azərbaycan lideri Qoşulmama Hərəkatının dəstəyi ilə bağlı demişdir: "Biz Qoşulmama Hərəkatı ölkələrinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə müntəzəm dəstəyini yüksək qiymətləndiririk. Bakı Zirvə görüşünün Yekun Sənədində Qoşulmama Hərəkatı ölkələri ərazilərin güc yolu ilə zəbt olunmasının yolverilməzliyini vurğuladılar təsdiq etdilər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq. 2020-ci ilin iyulunda Qoşulmama Hərəkatı Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi hərbi təxribatla bağlı kommünike qəbul edib. Bundan əlavə, Vətən müharibəsi zamanı- 2020-ci ilin oktyabrında nazirlər səviyyəsində keçirilən onlayn iclas çərçivəsində xüsusi bəyanat qəbul olunub. Bu sənədlərdə Qoşulmama Hərəkatı ölkələri Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib və ərazi bütövlüyünün bərpasına yönəlmiş səylərinə dair Azərbaycanla həmrəyliyini ifadə edib".

Təbii ki, müharibənin dayandırılmasında və Azərbaycanın milli maraqlarına uyğun olan sənədin qəbulunda Rusiyanın göstərdiyi xidməti də unutmaq olmaz. 2020-ci ilin noyabrından sonra münaqişənin nizamlanması ilə bağlı məsələlər məhz Rusiyanın təşəbbüsü ilə siyasi müstəviyə keçdi. Noyabrın 10-da RF Prezidenti Vladimir Putin, Azərbaycan lideri İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları Üçtərəfli Bəyanatla müharibə dayandırıldı. Bəyanata uyğun olaraq, konkret müddət ərzində işğal altında qalmış Kəlbəcər, Ağdam və Laçın rayonları ölkəmizə qaytarıldı. Əldə olunmuş razılaşmaların həyata keçirilməsinə nəzarət etmək üçün Dağlıq Qarabağ ərazisinə və Laçın dəhlizinə Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi qərara alındı. Beləliklə, Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiyanın 1960 nəfərlik odlu silahla təchiz edilmiş sülhməramlı ordu kontingenti yerləşdirildi.

Beləliklə, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin imzaladığı birgə bəyanatla ordumuzun hərbi sahədəki qələbəsi diplomatik cəbhədə də rəsmiləşdirilib.

Eyni zamanda, hazırda Qarabağda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi də fəal işləyir. Mərkəz regionda sabitliyin ciddi təminatçısıdır.

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2021.- 9 dekabr.- S.1;5.